Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# Elimizə Novruz gəlir

**Novruz bayramı münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Elimizə Novruz gəlir :** Novruz bayramı münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. N. Məcidova; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2019. – 33 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

# Giriş

İnsanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz bayramı ən qədim dövrlərdən bəri xalqımızın sevinc, şadlıq bayramı olmuş, tarixən müxtəlif dövrlərdə təzyiqlərə məruz qalmasına baxmayaraq, bu günümüzə qədər gəlib çatmışdır. "Bu milli bayramın indi yüksək şəkildə dövlət səviyyəsində qeyd edilməsi Azərbaycanın müstəqil siyasətinin bəhrələrindəndir". Ümummilli lider Heydər Əliyevin Novruz bayramı haqqında söylədiyi hər fikirdə Novruzun bütün türkdilli xalqların bayramı olduğu vurğulanır. Çünki bu bayramda, məhz ən qədim adət-ənənə, inancların, folklor nümunələrinin izini müşahidə etmək mümkündür. Novruz gecə il gündüzün bərabərliyi, şaxtalı qarlı qışın öz yerini məhsuldar yaz fəslinə verdiyi dövrün bir başlanğıcıdır. Xeyirxahlıq, dostluq, birlik rəmzi olaraq Azərbaycan incəsənətinin elə bir istiqaməti yoxdur ki, Novruz bayramı ənənələri zəncirində özünə yer almasın. Təsadüfi deyil ki, xalqımızın bir çox nağılları, nəğmələri, meydan tamaşaları, maraqlı ağız ədəbiyyatı nümunələri, şeirlər, nəsr nümunələri novruz adət-ənənələrində yer almışdır. Bu örnəklərə əkin nəğmələri, sağın nəğmələri, balıqçı nəğmələri, sayaçı nəğmələr, nehrə, cehrə nəğmələrini göstərə bilərik. Hətta Novruz bayramının yaşının dünyanın yaşı ilə bərabər tutanlar səhv etmirlər.

Novruz deyəndə ilk növbədə bütün türk xalqlarının ən əziz, ən sevimli bayramı yada düşür. Bu bayram təkcə bir xalqın bayramı yox dünyada yaşayan 50 milyon Azərbaycanlının, ümumilikdə bütün Türk xalqının bayramıdır. Elə Novruzun ən maraqlı cəhətlərindən biri də onun həm fərdi, həm də ümumxalq bayramı olmasıdır. Axı addım-addım yaxınlaşan yaz nəinki fərdin eyni zamanda bütün kütlənin yaddaşını oyadır, yenilik

təzəlik gətirir düşüncələrə. Ta Dədə Qorquddan başlayaraq bu günümüzə qədər xalq tərəfindən qorunaraq gəlib çıxmış Novruz adət-ənələrinin, novruz nəğmələrinin yaşamasında son 200 ildə Azərbaycan folklorşünaslığı tədqiqatçılarının da böyük əməyi olmuşdur. Bu nümunələrin toplanması, öyrənilməsi, təhlili işində tədqiqatçı və ədiblərdən Firidin bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Məmməd Səid Ordubadi, Məmmədhüseyn Təhmasib, Hüseynqulu Sarabski, Salman Mümtaz və başqalarını göstərmək olar. Dərin köklərə malik "Kitabi Dədə Qorqud", "Qobustan" adlı möhtəşəm söz abidələri ilə yaşayaraq bu günümüzə qədər gəlib çıxan Novruz adət-ənənələrimiz gələcək nəsillərin yaddaşında hələ uzun illər yaşayacaq. Bizdə kiçikyaşlı oxucularla, yeniyetmə uşaqlarla işləyən bir müəssisə kimi Novruz adət-ənənələrini gördüyümüz işlərlə gələcək nəsillərə çatdırmaqda əlimizdən gələni edirik. Onlarla müxtəlif Novruz adət-ənənələrini yaşadan kütləvi tədbirlər keçiririk. Hətta Novruz bayramı münasibətilə kitabxanamızda "Rusiya-Azərbaycan: iki mədəniyyətin dialoqu" devizi ilə "Novruz gəldi, yaz gəldi", və bu il "Milli geyimlərimiz və mahnılarımız" adı altında Volqaqrad şəhər Vilayət Uşaq kitabxanasının köməyi ilə telekörpü qurulur. Belə tədbirlərlə kitabxanamız nəinki öz oxucularına, həmçinin Azərbaycandan kənarda yaşayan uşaqlara da Novruz bayramı ilə bağlı folklor nümunələrini göstərmiş olur, tarixi keçmişimizin yaşadılması və çatdırılmasında böyük rol oynayır.

## Novruz Azərbaycanda

Azərbaycan xalqının özünün erkən əkinçilik, maldarlıqla bağlı xüsusi bayramları olmuşdur. Ulu qaynaqlardan süzülüb gələn bu bayramlarını xalqımız bir-birindən oynaq, şirin və

lətafətli nəğmələr, erkən təsəvvürlərlə bağlı miflər, ayin, etiqad, ənənə, və mərasimlərlə bəzəyib zənginləşdirmişlər. Lakin yüzilliklər boyunca bu xalq bayramlarının pozulanı da olmuşdur nəğmə bəndi unudulanı da. Ancaq xalq öz yaradıcılığı ilə bu nəğmələri, adətləri cilalamış, onu çeşidli yallıları, mərasimləri ilə, rəqsləri, rəngarəng oyunları ilə, meydan tamaşaları ilə yaşatmışdır. Hələ də yaşayaraq bu günümüzə qədər gəlib çıxan belə bayramlardan biri də Novruz bayramımızdır. Hansıki hər il mart ayının 20-21 və 22-də bütün dünya xalqlarının təxminən üçdə birində keçirilir. Bu bayramda təbiətin oyanması, əkinçilik maldarlıq təsərrüfatı, torpağın yenidən canlanması onun sərvətlərinin insana qucaq açması canlandırılaraq xalqımız tərəfindən nəğmələrə, rituallara, oyunlara çevrilmişdir.

Tarixi keçmişimizdə iz qoyan Türkmənçay tarixi faciəsindən sonra işğalçılar milli bayramımız olan Novruzu yaddaşlardan silib birləşdirdikləri ərazilərdə yeni-yeni bayramları dəbə mindirməklə bu bayramı gözdən salmağa, xalq içərisində onu unutdurmağa ciddi cəhd göstərmişdir. Bu ənənə təəssüf ki, sovetlər dönəmində də davam etdirilmişdir. Novruzun milli bayram kimi davam etdirilməsinə daha da ciddi qadağalar qoyulmuşdur. Dini bayram hesab edilərək gözdən salınmışdır. Ötən əsrin 60-cı illərində ölkədə milli özünüdərkə qayıdış başladığı üçün qadağalar nisbətən səngimişdir. 1966-cı ildə Heydər Əliyev Novruz bayramının təntənəli şəkildə keçirilməsinə nail olmuşdur. Rəhbərliyin böyük səyi nəticəsində Bakıda Novruz şənliklərinin keçirilməsi üçün hətta hazırlıqlar başlamışdır. Bayramın keçirilməsinə rəhbərlik isə ziyalımız və Azərbaycan KP MK-nin ideoloji işlər üzrə katibi Şıxəli Qurbanova tapşırılmışdır. ***“Bahar bayramı”*** adı ilə keçirilən Novruz bir çox məhrumiyyətlərə məruz qalsa da, yenidən ilk dəfə o il Azərbaycanda təntənəli şəkildə qeyd edilmişdir. Lakin bu təntənə Mikoyan və başqa erməni separatçıları liderlərinin

tərəfindən narazılığa səbəb olmuşdur. Lakin narazıçılıq məktublarına baxmayaraq Novruz tam qadağan edilməmişdir, yalnız onun adının çəkilməsi yasaqlanmışdır. Azərbaycanda Novruzun bayram edilməsi yenidən qapanmışdır. Akademik Mirzə İbrahimovun yazdığına görə, 1988-ci ilin noyabrında yenidən hökumətin bayram üzərində qadağaları silib atmasını xalq böyük fərəh hissi ilə qarşılamışdır. Televiziyalarımızda "İlaxır çərşənbə"lərimiz haqqında silsilə verilişlər hazırlanmış, 1992-ci ildə bayramın tarixini, adət-ənənəsini əks etdirən "Novruz bayramı" adlı əsər çap olunmuşdur. **Novruz bayramı. – Bakı;Yazıçı, 1992.**

## Keçiriləcək tədbirlər

Novruz milli adət-ənənələrimizi özündə yaşadan, milli bir bayram olduğundan hər il müxtəlif dövlət səviyyəli tədbirlər keçirilir. Belə tədbirlərlə yanaşı, müxtəlif dövlət müəssisələrində, təhsil ocaqları, mədəniyyət ocaqları və kitabxanalarda bu bayramla əlaqədar tədbirlər hazırlanır. Hər il olduğu kimi bu ildə kitabxanamız Novruz bayramı ilə əlaqədar oxucularımız üçün möhtəşəm tədbirlər keçirməyi nəzərdə tutmuşdur. Keçiriləcək tədbirlərin təşkilində kitabxana olaraq əsas sərgilərin təşkili önəmlidir. İlk növbədə Novruz bayramının gəlişini oxuculara hiss etdirmək üçün kitabxanalarda Novruz bayramına aid folklor nümunələri, tədqiqatçılar tərəfindən toplanmış əsərlərdən ibarət kitabların sərgisini təşkil etmək olar. Sərgiyə müxtəlif başlıqlar vermək olar. Məs: "Elimizə Novruz gəlir", "Bahar bayramı", "Novruz gəldi, yaz gəldi", "Ruhumuzu oyadan bayram" və s.

# Kitab sərgisi















Həmin sərginin sxemini belə verə bilərik:

1.---------;

2.--------; 3.-----------; 4.---------;

5.---------; 6.-----------; 7.---------;

8.-----------.

1.Ümumi başlıq: ***"Ruhumuzu oyadan bayram";***

2; 3; 4: kitablar;

5; 6; 7: qəzet və jurnal məqalələri;

8. CD VƏ DİSKLƏR.

Novruz haqqında daha mükəmməl təsvirləri, məlumatları qədim xalqlardan qalmış ərəb tarixçisi Əbu Reyhan əl-Biruninin (Qədim xalqlardan qalmış yadigarlar), "Qanuni məsudi", "Ət təfhim" əsərlərindən, Ömər Xəyyamın "Novruznamə" risaləsində, Nizamül Mülkün "Siyasətnaməsində" geniş məlumat verilir.

## Ruhumuzu oyadan bayram

Sərgidə yer alan *"Novruz Azərbaycanın xalq bayramı"* kitabının kitabxanaçı tərəfindən oxuculara əyani icmalı verilə bilər. Kitabda müxtəlif novruz ayinlərinin necə icra edilməsi, ta qədimdən indiyə qədər nənələrimizin dilindən söylənən novruz deyimləri, şəbeh tamaşaları, novruz tamaşalarından ən geniş yayılan tamaşalar sayılan "*Zorxanalar"* müxtəlif kəndirbazların çıxışları və s. geniş əhatəli şəkildə verilməsi oxucuda maraq oyadır.

## Biblioqrafik icmal

Biblioqrafik icmallar da kitabxanada geniş yayılmış şifahi təbliğat üsullarından biridir. Biblioqrafik icmal iki növdən: elmi-köməkçi və tövsiyə icmalından ibarət olur. İcmal keçirməkdə məqsəd oxucuları müvafiq bədii ədəbiyyatla tanış etmək və həmin kitabları təbliğ etməkdir. İstər elmi-köməkçi və istərsə də tövsiyə icmalları universal, sahəvi, mövzu və şəxsi xarakter daşıya bilər. Tövsiyə icmallarının məqsədi geniş oxucu kütlələrinin diqqətini bu və ya digər sahəyə dair, xüsusən ictimai-siyasi məzmunlu, ədəbiyyat və incəsənət sahəsində yaranan yeni əsərlərə cəlb etməkdən ibarətdir.




Kitabxanada xalqımızın ən qədim təbiət hadisələri ilə özünü əks etdirən yazın gəlməsi, dostluq, həmrəylik bayramı olan Novruzun qeyd edilməsi haqqında ***"Azərbaycanda novruz"*** adlı kitabın icmalının da keçirilməsi maraqlı olardı. Təqdim olunan bu kitab Novruz bayramının yüksək əxlaqi dəyərlərini onun-tamaşa mədəniyyət nümunələrini özündə toplayaraq gələcək nəslə çatdırır. Kitab 2012-ci ildə "Çıraq" nəşriyyatı tərəfindən nəşr edilmişdir. Təcrübə göstərir ki, kitab sərgisi ətrafında keçirilən icmallar daha maraqlı olur və daha çox oxucu toplayır. Həm də bu zaman oxucu kitabı görməklə yanaşı, onun qısa məzmunu ilə də tanış olur. Kitabların icmalında müəyyən ardıcıllıq gözlənilməlidir. Yeni kitabların icmalı çox kitabı əhatə etdikdə onları ümumi mövzular üzrə qruplaşdırıb qısa annotasiya ilə kifayətlənmək olar. İcmal zamanı bədii kitab haqqında geniş danışmaq məsləhət deyil. Barəsində söhbət açılan kitablardan elə detallar və ya faktlar seçilməlidir ki, hər bir oxucu tezliklə həmin kitabı oxumağa tələssin. Mövzu

icmallarında hər hansı bir problem və ya aktual məsələyə həsr edilmiş ədəbiyyat barədə danışılır. Mövzu icmallarında müvafiq məsələ ilə əlaqədar son illərdə nəşr olunmuş müxtəlif tipli kitablar (elmi-kütləvi ədəbiyyat, dərs vəsaitləri və s.) seçilir.

Mövzu icmalı keçirilərkən hər kitaba geniş xarakteristika verilməlidir. Ona görə də nəzərdən keçirmək üçün icmala yalnız mövzu ilə bilavasitə əlaqəsi olan bir neçə kitab daxil edilməlidir. İcmalın əvvəlində mövzunun adı, sonra məqsədi qeyd edilməlidir. Bu prosesdə təkcə biblioqrafik təsvir və müəllif haqqında məlumat deyil, həm də kitabın məzmunu, onun keyfiyyətləri və nöqsanlarından da yığcam danışılmalıdır. Mövzu icmallarının ətraflı planını, mətnini işçilər və kitabxana işinə cəlb edilmiş fəallarla əvvəlcədən müzakirə etmək məqsədəuyğun olardı.

## Məlumat bülleteni

Bülletenə müəyyən dövr ərzində daxil olan kitabların təsviri daxil edilir. Bölmələrə ayrılmaqla sistemli qaydada, bölmələr daxilində isə müəlliflərin (sərlövhənin) əlifbasına görə düzülür. Bülleten ayda bir dəfə buraxıla bilər. İlin axırında bülletenin buraxılışları bir yerdə cildlənir, köməkçi soraq ədəbiyyatı-əlifba mövzu göstəricisi, buraxılışlara daxil olan müəlliflərin və kitabların adlarının əlifba siyahısı tərtib edilir. Bülleteni oxucular tərəfindən operativ istifadə olunması üçün sistemin bütün bölmələrinə, həmçinin xidmət ərazisində yerləşən müəssisələrə göndərilir.

## Şirma kataloqu

Sərgi rəflərinin birini hər il Azərbaycan Prezidentinin iştirakı ilə Bakının mərkəzi küçələrinin birində keçirilən Novruz şənlikləri haqqında kitablardan və qəzet materiallarından təşkil edə bilərik. Bundan başqa, Novruz milli bayram olduğundan

milli dəyərlərimizi əks etdirən *"Novruz ümummilli bayramımız"* adlı, rəsmlərdən, müxtəlif əl işlərindən ibarət və yaxud *"Novruz bayramının süfrəsi"* başlığı altında masa üzərində sərgi, şirma kataloqu təşkil edə bilərik.

## Novruz müxtəlif ölkələrdə

Təmizlik, saflıq, gözəllik bayramı olan Novruz bayramı xeyirxah hissləri tərənnüm edən bir bayramır.

Ölkəmizlə bərabər Yaxın və Orta Şərqin bir çox ölkələrində də bu bayram səbirsizliklə gözlənən bir bayram kimi qeyd edilməkdədir. Mərkəzi-Asiyadan Balkanlara qədər uzanan böyük bir ərazidə məskunlaşan türk xalqları tərəfindən qeyd edilir. Müxtəlif ölkələrdə keçirilmə vaxtı müxtəlif olsada bayram ayı 20 fevraldan 21 mart müddətinə olan dövrü əhatə edir. Təbiətin qış yuxusundan oyandığını göstərən bu bayramın adı müxtəlif türk xalqlarının dilində fərqli səslənir. Məsələn, qırğızlar nooruz, qazaxlar "novruz, nauruz", uyğurlar "noruz, novruz", azərbaycanlılarda "novruz, nouruz, noyruz", krım tatarlarında "navrez", Kazan tatarlarında "neuruz", Balkan türklərində "nevriz", Yuqoslaviya türklərində "sultanı navruz", Kipr türklərində "mart dokuzu", Anadolu türklərində "Sultanı nevruz", "mart bozumu"və s adlandırır.

Mərkəzi Asiya ölkələrinə daxil olan Qazaxıstan, Sibir, Altay, Çin türkləri ölkələrində bayramda əhali kənd-kənd, oba-oba gəzərək göy çəmənliklərdə, çay kənarlarında toplaşaraq, çalıb oynayırlar. Daş qazan adlanan böyük çənlərdə "bayram aşı" bişirirlər. Qaranlıq düşəndə tonqallar qalanır, üstündən hoppanırlar. Aşıqlar "Manas" və "Ərgənəkon" dastanından parçalar oxuyurlar.

## Səhnəcik

Kiçikyaşlılarla Sultan Məcid Qənizadənin "Nağıl" kitabından səhnəcik təşkil edə bilərik. Kitab kiçik yaş qrupu

üçün nəzərdə tutulmuşdur. Müəllif uşaqların başa düşəcəyi tərzdə Novruz çilləsinə toxunmuşdur.

Ay uşaqlar, balalar!
Dağda kəklik balalar…
Durun, çıxın eşiyə,
Baxın Məstan pişiyə.
Quyruğu ilan kimi,
Gözləri mərcan kimi,
Tel-tel sarı bığları,
Şimşəkdir qulaqları.
Siçan görcək mırıldar,
Quş görcəyin moruldar…
Görüz o, nə haldadır,
Nağıl hələ daldadır.
Bircə kişi var idi,
İşdancığı dar idi.
Çıxdı bir gün buz üstə,
Sürüşdü, düşdü diz üstə.

**Dedi:** Ay buz sən nə zalımsan!
**Buz deyir:** Zalım olsaydım məni gün əritməzdi…
**Kişi** d**eyir:** A gün, sən nə zalımsan!
**Gün deyir:** Zalım olsaydım, mənim ustümü bulud almazdı…
**Kişi deyir:** A bulud sən nə zalımsan!
**Bulud** d**eyir:** Zalım olsaydım, məndən yağış yağmazdı...
**Kişi deyir:** A yağış sən nə zalımsan!
**Yağış dedi:** Zalım olsaydım, məndən göy ot bitməzdi...
**Kişi deyir:** Ay göy ot, sən nə zalımsan!
**Göy ot deyir:** Zalım olsaydım, məni qoyun-quzu yeməzdi...
**Kişi deyir:** A qoyun-quzu siz nə zalımsınız!
**Qoyun-quzu deyir:** Zalım olsaq, bizi qəssab kəsməzdi...
**Kişi Deyir:** A qəssab sən nə zalımsan!
**Qəssab deyir:** Zalım olsaydım məni çoban aldatmazdı...

**Kişi Deyir:** A çoban sən nə zalımsan!
**Çoban deyir:** Zalım olsaydım, çarığımın bağını siçan kəsməzdi…
**Kişi deyir:** A siçan sən nə zalımsan!
**Siçan deyir:** Zalım olsaydım, məni pişik yeməzdi…
**Kişi deyir:** A pişik, sən nə zalımsan!
**Pişik deyir:** Zalımam hay zalımam.

Kürsüaltı qışlağımdır
Yük üstü yaylağımdır.
Yay günü yeləsəndə
Çardaqlar oylağımdır.
Qış günü qar yağanda
Mətbəxlər ovlağımdır.
Çillə çıxar, qış gedər
Xəbər novruzdan yetər,
Murrov-murrov çığırram,
Miyau-miyau bağırram.
Tüstü qalxar ocaqdan,
Mən qalxaram bucaqdan.
Duraram hay duraram,
Qarı nənə çölə çıxanda
Süd – qaymağın vuraram.

Kiçik yaşlı oxucular arasında isə novruz personajları ilə bağlı sual cavab və yaxud viktorina keçirmək daha maraqlı olar. Viktorinada Keçəl ilə Kosa səhnəyə dəvət edilir. Kosa əlində rəngli bayram yumurtaları dolu səbəti ilə iştirakçılara yaxınlaşaraq onlara yumurta döyüşdürür. Sonda qalib olan iştirakçı kosanın yumurtasını alır.

Kökü hələ Kitabi Dədə Qorqud erasına gedib çıxan Novruza tarixən qadağalar qoyulsa da, bu bayram bu gün də öz adət-ənənələri ilə bir sıra türkdilli xalq və dövlətlərdə təntənə ilə

qeyd edilir. Bunlar Azərbaycan, Türkiyə, Türkmənistan, İnqusetiya, Qaraçay, Kabardi-Balkar, Dağıstan, Çeçenistan, Tuva Altay və s. Milli adət-ənənələrimizi çatdırmaq üçün əsasən milli geyimli oxucularla hazırlanmış səhnələri təqdim etmək olar. Yuxarı sinif şagirdləri "Kos-kosa" oyunundan kiçik səhnəcik hazırlayırlar. Səhnəcikdən əvvəl oyunla bağlı suallar verilir:

1) Kos-kosa oyunu nə vaxt oynanılır?
2) Kosanın mahnısını kim bilir?
3) Kosa niyə "öldü" deyib yerə yıxılır?

Məktəblilərlər kosa paltarındakı məktəbli ilə qapı-qapı gəzib, mahnı oxuya-oxuya ona pay toplayırlar. Onlar birlikdə oxuyurlar:

A kosa-kosa, gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yol salsana.
A uyruğu, uyruğu,
Saqqalı it quyruğu,
Kosam bir oyun eylər,
Quzunu qoyun eylər,
Yığar bayram xonçasın,
Hər yerdə düyün eylər…

Mahnı qurtarır kosa "kosa öldü", - deyib yerə yıxılır. Dostları başına yığılıb ona suallar verir.

- Kosa hardan gəlirsən?

**Kosa:** Dərbənddən.

- Nə gətirmisən?

**Kosa:** Alma.

- Almanı neylədin?

**Kosa:** Satdım.

- Pulunu neylədin?

**Kosa:** Öküz aldım.

- Öküzü neylədin?

**Kosa:** Vurdum öldü…..

Səhnədən sonra kosaya pay verirlər. Payını yığıb evə gedir, şənlik keçirməyə.

Məktəbəqədər yaşılı oxucular üçün kitabxanaçı tərəfindən Novruz bayramı ilə bağlı şifahi xalq ədəbiyyatı nümunələrimizdən, yazıçı və şairlərimizin Novruz bayramı haqqında olan əsərlərindən səhərciklər və ucadan oxular təşkil etmək münasib olar. Məlum olduğu kimi səhərciklərin təşkili kitabxanada daha səmərəli nəticələr verir. Yazın gəlişini təsvir edən İlyas baba və Novruzla Yazgülün əhvalatı da çox maraqlıdır.

**Kitabxanaçı:** Yer üzündə yaşayan bir çox xalqların, eyni zamanda Azərbaycan xalqının milli bayramı olan Novruzda uşaqları yaddan çıxarmaq olmaz. Səbəbi odur ki, malik olduğumuz milli dəyərlərimizi gələcəkdə uşaqlar yaşadacaqdır. Məşhur İlyas baba və onun nəvələri, Novruzla Yazgülün başına gələn əhvalatlar" ı min illər boyu Novruz çərşənbələrində sevə-sevə təkrarlanır. İlyas baba isə öz nəvələri ilə Novruz çərşənbələri haqqında bunları bölüşür.

**Kitabxanaçı:** Günlərin birində fevral səhərində (çərşənbələr nəzərdə tutulur) sübh tezdən İlyas baba nəvələri Novruz və Yazgül yatan otağa daxil olur. Baba bircə-bircə nəvələrinin çarpayısına yaxınlaşıb onları yuxudan oyadır:

- (İlyas baba): Novruz..., Yazgül.... oyanın. Oğlum Novruz, qızım Yazgül qalxın bu gün çərşənbə axşamıdır. Qədim inanclara görə bu gün su çərşənbəsidir. Sübh tezdən hamı qalxıb, su üstündən keçməlidir. Uşaqlar yaxşıca geyinib İlyas babanın əlindən tutub yola düzəldilər

- Hava yenicə işıqlanırdı. Sübhün təmiz və saf havası xoşbəxtliyə bərabər idi. Onların həyətindən Xəzərin bir qolundan süzülüb gələn çay keçirdi. Çayın ətrafı adamlarla dolu idi. Deməli, tezdən oyanan təkcə onlar deyildilər. İlyas baba nəvələrinə ilk dəfə olaraq nə üçün insanların sübh tezdən çayın üstündən o tərəf - bu tərəfə keçməyinin mənasını söyləyirdi.

- Çərşənbələrin necə yaranması haqqında yaşayan rəvayətləri isə oxucular özləri təqdim edir.

*Sonra uşaqlarla kitabxanaçı sual-cavab edir.*

**1.** Kim Novruzun əsas personajlarını sayar?
Səməni, Keçəl, Kosa
**2.** Bəs baharın ilk müjdəçisi nədir?
Qaranquş
**3.** Novruzun neçə çərşənbəsi var?
Novruzun dörd çərşənbəsi var.
**4.** Novruzun ilk çərşənbəsi hansıdır?
su
**5.** Od çərşənbəsi novruzun neçənci çərşənbəsi sayılır?
ikinci

İnsanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən, tarixən maneələrə məruz qalmış Novruz bayramı haqqında kitabxanada “Novruz bayramının tarixi” adlı tədbir keçirə bilərik.

**I aparıcı:** Məişətimizdə dərin tarixi köklərə malik Novruz adət-ənənələri bu gün də yaşayan əbədiyaşar bir kitabdır.

**II aparıcı:** Novruz adlı əbədiyaşar bu kitabın müəllifi isə Azərbaycan xalqının yaratdığı “Qobustan rəsmləri”, “Kitabi Dədə Qorqud” adlı möhtəşəm söz abidələridir.

**I aparıcı:** Tarixi minilliklərə qədər gedib çıxan bu bayramın nə bir sözü nə bir adət-ənənəsi yazıya alınmışdır. Ağızdan-ağıza yaşayaraq bu bayramın öz nəğmələri, adət-ənənələri, mərasimləri, oyunları bu günümüzə qədər gəlib çatmışdır.

**II aparıcı:** Bu örnəklərdən əkin nəğmələri, sayaçı sözlər, sağın nəğmələri, xıdır nəğmələri və s. bu gün də sevilərək yaşamaqdadır. Hələ uşaq yaşlarımızdan hər birimizin sevə sevə əzbərlədiyimiz:

Gəl-gəl a yaz günləri
İlin əziz günləri
Dağda ərit qarları
Bağda ərit qarları
Çaylar axıb sel olsun
Taxıllar tel-tel olsun
Ağaclar açsın çiçək
Yarpağı ləçək-ləçək.

Misralarında müəllif yazın gəlişini hərtərəfli təsvir etmişdir. Məişətimizə istilik- xeyir bərəkət rəmzi kimi daxil olan yaz fəsli gəlişi ilə hər bir evə sevinc, ruzi bərəkət gətirir. Canlanan təbiət sanki qış libasını atıb daha əlvan, göz oxşayan bir geyimə bürünür. Təzəcə qarı əriməyə başlayan dağ yamaclarında, qarın altından baş qaldıran novruzgülü, bənövşə, ağ, qırmızı, sarı rəngli adı bilinməyən güllər, soyuq ölkələrdən dəstə-dəstə uçub gələn qaranquşlar baharın müjdəçilərindən hesab olunur.

**I aparıcı:** Bahar bayramının əsas atributları çərşənbələrdir. Bu çərşənbələr 7 olmaqla ilk 3 çərşənbə yalançı sayılır və belə sıralanır. Hər bir çərşənbəni - su, od, yel, torpaq çərşənbəsini bir oxucu təmsil edir.

**I oxucu** (Su çərşənbəsi) : Üç oğru çərşənbədən sonra özünü yetirən su çərşənbəsi sanki yazın tumurcuğudur. Həm inama, həm də təbii əsasa görə yazın ilk oyanışı sudan başlayır. Dağları dərələri bürüyən qarın canına isinti gəlir. Bu çərşənbədə sübh tezdən suyun qırağına gəlib dua edən, qəlbində niyyət tutan, dərdini suya danışan insan yüngülləşir. Su elə müqəddəsdir ki axır çərşənbə çaylar dayanıb axmır, ağaclar baş əyib alnını suya söykəyir.

Qışda sülhü buz ilən...
Yazda salar dava su.
Dillənməyir söz ilən.
Çəkir ağlar nəva su.

**II oxucu** (Od çərşənbəsi):Novruzun ikinci çərşənbəsi Od-atəş çərşənbəsi sayılır. Od yerə nəfəs verir, isidir, qışda donmuş torpaqların donunu açır. Od çərşənbəsində də su çərşənbəsindəki kimi tonqal qalayar, məşəllər alışdırar, şamlar yandırarlar. Uşaqlar, böyüklər, qızlar, oğlanlar tonqal ətrafında halay vuraraq, rəqs edər, mahnı oxuyar, "ağırlığım uğurluğum odda yansın" deyərək tonqal ətrafından tullanarlar. Su kimi od da insanları təmizə çıxarıb, şaxtadan qorumuş, ölməyə qoymamışdır.

**III oxucu:** (Yel çərşənbəsi) – su, od və torpağın bir-biri ilə dil tapması havanı yaratdı. Bu həyat amillərindəndir. İnsan bir neçə gün susuz yaşaya bilər, torpaqdan ayrılıb təyyarələrdə havaya qalxa bilər, lakin 1 neçə dəqiqə havasız yaşaya bilməz. İnanclara görə Yel baba ilə Əkinçi baba qardaş imişlər. Bahar gələndə onlar tarlanı birlikdə əkərmişlər. Bundan sonra tarladakı bütün işlərə Əkinçi baba cavabdeh imiş. O, məhsula su verər, ot-alaqdan təmizləyər, becərər, yetişəndə də biçib xırmana gətirərmiş. Arpa buğdanın dənini küləşdən ayırmaq isə Yel babanın işi imiş. Bir kərə yenə adamlar arpa buğdanı döyüb gözləyirlər ki, Yel baba gəlib onu sovursun. Amma Yel baba gəlib çıxmır ki, çıxmır. Səbri tükənmiş adamlar taxılı özləri sovurmağa başlayır və

Yel baba, amana gəl,
Dolanıb xırmana gəl,
Bir bəhanə yoxdursa
Xəlbirə, samana gəl
A Yel baba, Yel baba

Saman sənin, dən mənim
Ləçəyi mindər-mindər
Yonunu döndərmirsən
Mehini bizə göndər
A Yel baba, Yel baba

deyə oxuyarmışlar. Elə bu vaxt gəlib xırmana yetişən Yel baba eşitdiyi sözlərdən inciyib geri dönür. Adamlar öz əməllərindən peşman olurlar. Hamı Yel babanı səsləyir və oxuyurlar:

A Yel baba, Yel baba
Qurban sənə gəl baba!
Taxılımız yerdə qaldı
A Yel baba,Yel baba...

Bu nəğmə Yel babanın xoşuna gəlir. Geri qayıdıb xırmandakı buğdanı arpanı sovurub, samandan ayırır.

*Bayram miflərindən Fatı qarının Örkəni əsatirini səhnələşdirək*

Səhnədə qarı paltarında oxucu ip əyirir. Sap birdən dığırlanıb dolaşır.

**Qarı:** Yel baba genə hardan gəldi – o ki var yel babanı qarğayır. Bunu eşidən yel baba daha möhkəm qarının yumaqlarını silkələməyə başlayır. Qarını ipləri ilə birlikdə qanadlarının altında göylərə aparır. Qarı nə qədər yalvarır yel bababa endirmir. Qarını endirməyən yel hər dəfə yağışdan sonra göydə yeddi rəngli göy qurşağı parladır.

**IV oxucu:** Torpaq çərşənbəsində inanca görə su ilə odun torpağa qovuşması torpağın canını açır, torpağı yumşaldır. İnsanın, bütün canlı varlıqların həyatında su və odla yanaşı, torpağın da çox böyük əhəmiyyəti danılmazdır. Su ana, od atadırsa torpaq varlığın özüdür.

**I aparıcı:** Beləcə Novruz adət, ənənə və mərasimlərində məntiqi olmayan heç nə yoxdur. Sanki bütün pisliklər suda batmış,

odda yanmış, küləklə sovrulmuş, torpaqda çürümüşdür. Ədəbiyyatımızın bir çox janrlarında bahar fəsli daha çox müraciət edilən mövzulardandır. Aşıq ədəbiyyatı nümayəndələrindən Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Qaracaoğlan, Aşıq Alı, Aşıq Hüseyn, Aşıq Musa, Aşıq Ələsgər və başqalarını göstərmək olar. Aşıq Şakirin "Bahar fəsli yaz ayları gələndə" şeiri oxucunun dilindən söylənilir

**II aparıcı:** Böyük Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam", Balaş Azəroğlunun "Əziz gün" şeirində də Novruz bayramı və onun adətləri öz poetik əksini tapmışdır.

*Səhnəyə oxucular daxil olur:*

**I oxucu:** Bir əlində günəş tutub,
Bir əlində səhər yeli
Bir əlində aydın səma,
Bir əlində yağış seli.
Bahar gəlir yurdumuza.
Bir il onu gözləmişik,
Çəmənlərə döz, demişik,
Biz baharı gözləmişik.
Belə uzun qış görmədim
Mən ömrümdə bu qış kimi.
Köksüm altda vuran ürək
Çapalayıb bir quş kimi.
Döz, demişəm.
Döz, demişəm, Novruz gələr,
Qar altında baş qaldırar novruzgülü.
Boz buludlar parçalanar,
Göy açılar,
Asimanın sinəsində
Yanar şam-şam "ulduz gülü"...
Döz demişəm ürəyimə,

Bahar gələr,
Yola, rizə su çiləyər ağ buludlar,
Baş qaldırar təzə otlar.
Zirvədəki qayalardan
Buz əriyir damcı-damcı, gilə-gilə,
Günəş silər buludların göz yaşını gülə -gülə,
Saqqalından "yaş" süzülən
Qışın halı yaman olar.
Qoca dünya cavan olar...
Qollarını geniş açar,
Sinə dolu nəfəs alar qara torpaq.
Düymə-düymə gülümsəyər
Üstü qırov tutan budaq.
Bahar gələr,
Sünbüllərə sığal çəkər səhər yeli.
Təzə dünya gülə-gülə qarşılayar
Təzə günü, təzə ili...
Damcılardan irmaq olar,
Sellər gələr, çaylar daşar.
Arzular da təzələşər,
Ümidlər də təzələşər…

Aparıcılar səhnəyə daxil olur:

**I aparıcı:** El-oba arasında çillələr qış ayına təsadüf etdiyindən adamlar qışın soyuqluğuna sərtliyinə dözümlü olduqlarını göstərmək üçün müxtəlif ayinlər icra etmişlər. "Çillə kəsmək", "Çillə suyu", "Çillə qarpızı" belə ayinlərdən sayılır. Repressiyaya məruz qalmış İstiqlal şairi sayılan Əhməd Cavad yaradıcılığında Novruz bayramı ilə bağlı "Çillə şərqisi", "Yaza xitab", "Böyük çillə", "Boz ay", "Yel baba" silsilə etnoqrafik şeirləri vardır. Novruz bayramı günlərində oynanılan xüsusi meydan tamaşaları vardır.

Geniş meydançada şən əhvali-ruhiyyəli qızlar – gəlinlər, uşaqlar, yaşlılar yığışıb musiqi sədaları altında rəqslər edir. Bir dəstə yeniyetmə qız "Sayaçı mərasimi" rəqsini ifa edir. Ortada baş rəqqas oxuyur:

Qara qaş, qara gözlər,
Çoban qatığı üzlər
Əli xınalı qızlar,
Əllərində çanaqlar,
Bərənin yolun gözlər

Rəqs edən qızlardan biri baş rəqqasın ifa etdiyi musiqini davam etdirir:

Sürünü döndər çoban
Qulançardan dər, çoban!
Özün topla, özün ye,
Bizə də göndər çoban

**Başqa birisi:**

Yapıncına gir, çoban,
Könlümü dindir çoban!
Özün çal, özün çağır,
Dağlar sənindir çoban!

Rəqs bitir. Ardınca meydançaya Bənək-çoban iti maskasında aktyor rəqqas daxil olur. Yeniyetmələr bənəyi dövrəyə alır, yeni musiqinin müşayəti ilə onu oynadırlar:

**Xor:** Bənək ha, a Bənək ha.
Bənək ha, a Bənək ha!

**Dəstəbaşı:** Səhər ertə yel əsdi,
O yel səbrimi kəsdi.

**Xor:** Bənək ha, a Bənək ha.
Bənək ha, a Bənək ha!

**Dəstəbaşı:** Suyun bulaqda qaldı

Yalın yalaqda qaldı

**Xor:** Bənək ha, a Bənək ha.
Bənək ha, a Bənək ha!

**Dəstəbaşı:** Ellər arana köçdü,
Harayladı gəlmədin.
Çoban yaylaqda qaldı.

**Xor:** Bənək ha,a Bənək ha.
Bənək ha,a Bənək ha!

Oyun bitir.Yeniyetmələr və bənək meydanı tərk edirlər.

Qış yola salıb Baharın dağların döşünə yaşıl xalı sərdiyi bir vaxtda elimizə qədəm basan Novruz bütün türk xalqının ən əziz ən sevimli bayramlarındandır. Tarixi sadə olmayan Novruz zamanın çətin sınaqlarından keçib gəlmişdir. Uzun əsrlər boyu onun bəzi mərasimləri dəyişmiş, mənasını itirərək sıradan çıxmışdır. Kitabxanada milli bayramımız Novruzla bağlı tədbirlər sırasında kiçik yaşlı oxuculara yaradıcılıq imkanları aşılayan kütləvi tədbirlərdən biri də səhərciklərdir. Səhərciklərin hazırlanması və keçirilməsində çoxlu oxucu kütləsi iştirak edir, hazırlıq dövründə onlar öz mütaliə mədəniyyətlərini yüksəldir. Belə tədbirlərin təşkili şagirdlər arasında kitabı təbliğ etmək, proqram materialını hərtərəfli zənginləşdirmək, möhkəmləndirmək, şagirdlərə yeni bilik, bacarıq və vərdişlər aşılamaq məqsədi daşıyır. Səhərciklərin səmərəliliyi onun hazırlığından asılıdır.

## Torpaq çərşənbəsi ilə bağlı keçirilən tədbir

Kitabxanada Novruzun sonuncu çərşənbəsi olan Torpaq çərşənbəsini qeyd edə bilərik. Bu haqda müxtəlif tədbirlər - metodik plakatlar, torpaq çərşənbəsinin adətlərini əks etdirən kitablardan ibarət guşələr, mövzu haqda həmin gün daimi

nümayiş edilən slayd, təşkil edə bilərik. Güşədə torpaq çərşənbəsi haqqında dərc edilmiş jurnal məqalələri, broşurlar, kitab və kitabçalardan istifadə edirik.Slaydda istifadə etmək üçün torpaqla bağlı yaranmış folklor nümunələrimizdən "atalar sözlərin" dən istifadə edə bilərik. Məs:"Torpaqdan pay olmaz"; Torpaq deyər : "Sən mənə tər ver, mən sənə zər verim"; "Yer qulaqlı olar"; "Torpağın qarası üz ağardar".

Həmçinin folklorumuzda yer alan andlar və alqışlarda da torpağın böyüklüyü, müdrikliyi, qiymətliyi barədə maraqlı fikirlər söylənmişdir. Novruz bayramı ərəfəsində keçirilən axır çərşənbələrdən olan ilaxır çərşənbə həm də torpağın oyanışı mənasını daşıyır. Bu dörd çərşənbənin sonuncusunda torpaq oyanır. Torpağın oyanmasınıda ulu əcdadlarımız ən şən, şux mərasimlərlə qarşılamışlar. Xalqın inamı olmuşdur ki yel, su, od öz güclərini torpaqdan almışlar. Elə bu inamla bağlı xalq arasında mifoloj bir təsəvvürdə yaranmışdır. Bir vaxt su, sel, atəş Torpaq xatunun yeraltı məbədinə qonaq gəlmiş və burada onu oyadaraq insanların əziyyət çəkdiklərini söyləmişdir. Və burada Torpaq çərşənbəsi onlara cavab verərək adamları fəlakətə salanın özü fəlakətə düşər deyə yerindən qalxır. Onlar əl-ələ verib bu mahnını oxuyurlar:

Zəmzəm gəldi, Atəş gəldi Yel gəldi,
Təzə ömür, təzə məhsul, il gəldi.
– Deyərək işıqlı dünyaya çıxırlar.

Kitabxanada Novruz bayramı münasibətilə hazırlanmış bayram şənliyində uşaqlara bayrama xas meydan tamaşaları nümayiş edə bilərik. Səhnədə yuxarı sinif şagirdləri zurna, balaban, dəfin ifasında müxtəlif rəqslər edir. Masqaraçı öz rəvayətini danışır:

- Bir padşahın bir kar vəziri var idi. Padşah xəstələnmişdi. Saray əhli ona baş çəkməyə gəlmişdi. Vəzir bilir ki, padşahdan hər dəfə eyni sözü təkrar soruşanda ya da ona

“bəli” deyəndə acığına gəlir. Vəzir padşahı yoxlamağa gəlir.

- Padşahım bu nə yataqdı düşüb qalmısan?
- **P:** Ölüm yatağı.
- **V:** Tez-bazar olsun.
- **V:** Həkimin kimdir?
- **P:** Əzrayıl.
- **V:** Əli yüngül olsun.

Padşah əsəbləşir. Elə bilir ki, vəziri onu ələ salır. Onun boynunu vurdurmağı əmr edir. Padşah əmr edir ki, vəzirin boynunu vursunlar. Bir masqaraçı gəlib ona deyir ki, onsuzda onun qulağı eşitmir. Burax getsin. Padşahın da masqaraçının bu sözündən sonra vəzirə yazığı gəlib onu azad edir.

**II aparıcı:** Bu da bizim novruz tamaşamızın sonu. Hansıki şahın vəziri beləcə bu təzə gündə qurtulur.

**I aparıcı:** Ömər Xəyyam öz “Novruznaməsində yazırdı: “Cəmşid bu günü” (Fərvərdini- mart ayının əvvəli) Novruz adlandırmaq barədə fərman verdi. Hər il fərvərdinin başlanğıcını bayram eləməyi, yeni ili həmin gündən hesablamağı əmr etdi.

**II aparıcı:** Milli varlığımızın və ulu babalarımızın mənəvi aləminin zənginliyini ən incə çalarlarınadək nümayiş etdirən bu el bayramı əsrlərin sınağından çıxmış gözəl adət-ənənələri ilə bu gün də çox sevilir, uca tutulur və layiqincə qorunub yaşadılır. Onun hazırda respublikamızın hər bir güşəsində böyük ruh yüksəkliyi ilə rəsmi səviyyədə geniş qeyd olunması dövlət müstəqilliyimizin verdiyi bəhrələrdəndir. Novruz bayramı, sözün əsl mənasında, ümumxalq bayramı mahiyyəti qazanmışdır. Qoy Novruzun qədəmləri uğurlu, ayağı sayalı olsun, xalqımıza möhkəm birlik, elimizə-obamıza dinclik, əmin-amanlıq, bolluq, səadət, xoşbəxtlik və firavanlıq gətirsin!

## Ədəbiyyat siyahısı


### *Kitablar*

Ağırlığım, uğurluğum odlara : nağıl / red. Z. Şahsevənli ; tərt.ed. B. Abdulla. - Bakı : Gənclik, 1996. - 38 s.

Elxan E. M. Novruz ədvar musiqidə. - Bakı : Səda, 2010. - 52 s.

Əmiraslanov T. Novruz süfrəsi. - Bakı, 2010. - 80 s.

Göyər, səmənim, göyər. - Bakı : Xəzər, 2009. - 160 s. : rəngli il.

Mirzə A. Novruz töhfələri. - Bakı : Xəzər, 2009. - 152 s.

Nəbiyev A. Azərbaycanda Novruz. - Bakı : Çıraq, 2012. - 272 s. - (cildli).

Novruz bayramı ensiklopediyası : Xalq bayramı. - Bakı : Şərq-Qərb, 2008. - 208 s. : rəngli foto - (Lüğət və Ensiklopediyalar).

Novruz: Azərbaycan xalq bayramı : Bələdçi kitab. - Bakı : Təhsil, 2011. - 208 s.

Qocayev Ə. Novruz bayramı // Bayramlar və tarixi günlər. - Bakı : Altun kitab, 2006. - 152 s.

(Məktəblinin Kitabxanası. Elmi-Kütləvi Ədəbiyyat).

### *Dövri mətbuatda*

Abdullayeva F. Novruz - beynəlxalq karnavallar statusunda // Mədəniyyət.az. - 2016. - № 3. - S. 94-97.

Albalıyev Ş. Su çərşənbəsi // Azərbaycan. - 2015. - 24 fevral. - № 43. - S. 7.

Albalıyev Ş. Torpaq çərşənbəsi // Azərbaycan. - 2015. - 17 mart. - № 60. - S. 6.
Albalıyev Ş. Yalançı çərşənbə : novruzqabağı mərasimlər // Azərbaycan. - 2015. - 17 fevral. - № 37. - S. 7.
Albalıyev Ş. Yel çərşənbəsi // Azərbaycan.. - 2015. - 8 mart. - № 54. - S. 8.
Aydınoğlu T. Tarixlər şahidi Novruz təbiət təqviminin ilk günü, xalqımızın həmişəcavan bayramıdır // Xalq qəzeti. - 2017. - 19 mart. - № 61. - S. 7.
Bayramzadə S. Atıl-batıl çərşənbə : Novruz bayramı // Kaspi. - 2015. - 25 fevral. - № 36. - S. 15.
Bəydili C. Yaz bayramı Tanrıya ibadətdir // Ədəbiyyat qəzeti. - 2016. - 12 mart. - № 10. - S. 3.
Bünyadzadə K. Baharın ümidləri : könül dünyası // Füyuzat. - 2018. - № 2. - S. 36-41.
Bünyadzadə K. Dörd ünsürdən biri: Hava // Respublika. - 2019. - 12 mart. - № 57. - S. 5.
Bünyadzadə K. Dörd ünsürdən biri: Su // Respublika. - 2018. - 27 fevral. - № 45. - S. 6.
Bünyadzadə K. Dörd ünsürdən biri: Torpaq // Respublika. - 2018. - 20 mart. - № 61. - S. 5.
Cırtdanın Novruz sovqatı : nağıl // Bala dili. - 2015. - № 3. - S. 2-5.
Elxan E M. Hava çərşənbəsi // Respublika. - 2019. - 12 mart. - № 57. - S. 5.
Ələddinqızı N. Çərşənbələrin sultanı - Torpaq çərşənbəsi // Səs. - 2015. - 17 mart. - № 51. - S. 10.
Əlifoğlu Ş. Multikulturallığın ənənəvi nümunəsi: Novruz bayramı // Azərbaycan. - 2016. - 15 mart. - № 58. - S. 7.
Əliyev A. Bahar döyür qapını bənövşənin ətriylə // Azərbaycan. - 2018. - 22 mart. - № 63. - S. 5.

Əliyeva H. Birlik və gözəllik bayramı : Novruz gəlir Yaz gəlir // Azərbaycan. - 2016. - 6 mart. - № 52. - S. 8.
Əliyeva İ. Çillələr : novruzaqədərki mərasimlər // Azərbaycan. - 2016. - 14 fevral. - № 34. - S. 7.
Əliyeva İ. Çillələr : novruzqabağı mərasimlər // Azərbaycan. - 2015. - 17 fevral. - № 37. - S. 7.
Əliyeva İ. Qoy ocağımız sönməsin... : Novruz gəlir, yaz gəlir... // Azərbaycan. - 2018. - 6 mart. - № 51. - S. 7.
Əliyeva İ. Su çərşənbəsi // Azərbaycan. - 2018. - 27 fevral. - № 45.
Əliyeva İ. Torpaq çərşənbəsi // Azərbaycan. - 2018. - 20 mart. - № 62. - S. 10.
Əliyeva İ. Xalqın əziz bayramı // Azərbaycan. - 2018. - 20 mart. - № 62. - S. 1,12.
Əliyeva İ. Xıdır Nəbi : Novruzaqədərki bayramlarımız // Azərbaycan. - 2016. - 9 fevral. - № 29. - S. 8.
Əliyeva İ. Yel çərşənbəsi // Azərbaycan. - 2018. - 13 mart. - № 56. - S. 7.
Əliyev Z. Novruz rəngləri // Ədəbiyyat qəzeti. - 2016. - 19 mart. - № 11. - S. 19.
Əziz V. Novruz gülləri : şeir // Sehrli dünya. - 2015. - № 38. - S. 33.
Fərəcova Z. Cənub bölgəsində Novruz büsatı // Azərbaycan. - 2018. - 13 mart. - № 56. - S. 7.
Fərəcova Z. Ədəbiyyatda Novruz adət-ənənələri // Azərbaycan. - 2018. - 24 mart. - № 65. - S. 4.
Göyyallı X. Fəsillərin yaranmasında Novruzun yeri // Azərbaycan. - 2015. - 30 mart. - № 64. - S. 10.
Göyyallı X. Novruzun elmi-astronomik əsasları // Xalq qəzeti. - 2015. - 20 mart. - № 63. - S. 7.

Gülayə. Yüz otuz il əvvəlki on beş mart günündə : Novruz bayramının tarixi haqqında // Kaspi. - 2015. - 14-16 mart. - № 48. - S. 24.
Günəş E. Yaz aylarında ; Novruz ; Ağsu torpağı : şeirlər // Savalan. - 2016. - 5-18 iyul. - № 34. - S. 8.
Hacalıyev E. Milli-mənəvi dəyərlərin möhtəşəm təcəssümü : Novruz Azərbaycan xalqının zəngin tarixi ənənələrini və müasirliyini tam əks etdirir // Azərbaycan. - 2017. - 19 mart. - № 61. - S. 1, 8.
Hüseynzadə Ə. Novruz // Ədəbiyyat qəzeti. - 2015. - 14 mart. - № 16/17. - S. 1.
İbrahimova A. Minilliklərdən gələn mübarək Novruz // Kaspi. - 2016. - 15 mart. - № 45. - S. 15.
İbrahimova G. Novruz bayramında : nağıl // Sehrli dünya. - 2018. - № 60. - S. 38-41.
İsmayılqızı X. Novruz həmrəylik, birlik bayramıdır // İki sahil. - 2017. - 16 mart. - № 48. - S. 16.
İsmayılov A. Novruz bayramı ; Bahar nayramı : şeirlər // Səs. - 2016. - 19 mart. - № 52. - S. 13.
Qaliboğlu E. Novruz havası : Quzeydən güneyə hər eldə Novruz var // Qobustan. - 2018. - № 1. - S. 60-62.
Qaliboğlu S. Novruzda "Padşah-xan oyunu" // Mədəniyyət. - 2018. - 20 mart. - № 22. - S. 11.
Qasımlı M. Oğru çərşənbələr, Doğru çərşənbələr...// Azərbaycan. - 2016. - 19 mart. - № 62. - S. 11.
Qasımlı M. Oyan, torpaq, oyan... : Novruz gəlir, yaz gəlir // Azərbaycan. - 2015. - 18 mart. - № 61. - S. 9.
Qənbərli E. Şərqin dünyaya bəxş etdiyi bəşəri dəyərlər xəzinəsidir Novruz // Azərbaycan. - 2016. - 19 mart. - № 62. - S. 11.
Qoca F. Gəl Novruz bayramım, Bahar bayramım : şeir // Ədəbiyyat qəzeti. - 2017. - 4 mart. - № 8. - S. 7.

Quliyev Ə. Novruz bayramı təsviri sənətdə // Azərbaycan. - 2016. - 18 mart. - № 61. - S. 9.
Loğmanoğlu S. Bu gün Su çərşənbəsidir // Yeni Azərbaycan. - 2016. - 23 fevral. - № 34. - S. 8.
Məhərrəmli V. Çərşənbəniz mübarək! : Novruz çələngi // Səs. - 2016. - 25 fevral. - № 36. - S. 10.
Məhərrəmli V. İlaxır çərşənbə - Torpaq çərşənbəsi : Novruz çələngi // Səs. - 2016. - 15 mart. - № 48. - S. 12.
Məhərrəmli V. Novruz çələngi : şeir // Səs. - 2016. - 8 mart. - № 44. - S. 12.
Məhərrəmli V. Novruz gəldi, yaz gəldi... : Novruz çələngi // Səs. - 2016. - 18 mart. - № 51. - S. 12.
Məhərrəmli V. Od bayramın mübarək : Novruz çələngi // Səs. - 2016. - 1 mart. - № 39. - S. 12.
Məmmədova N. Novruz: dirçəliş və sevgi bayramı // Palitra. - 2015. - 18 mart. - № 50. - S. 15.
Mirməmməd G. Sağlamlıq və təmizlik bayramı // Mədəniyyət. - 2018. - 20 mart. - № 22. - S. 15.
Musa Ə. Novruzum, təzə günüm // Kaspi. - 2015. - 17 mart. - № 49. - S. 13.
Musaqızı L. Novruz bayramını xalqa qaytaran ictimai xadim : Şıxəli Qurbanov Novruzun dövlət səviyyəsində qeyd edilməsinə ölümünü göz önünə alaraq nail olur // Kaspi. - 2015. - 20 mart. - № 52. - S. 21.
Nasir Ş. Yurdumuza bahar gəlir // Respublika. - 2016. - 19 mart. - № 62. - S. 7.
Nəbiyeva A. Qarabağda Novruz bayramı// Azərbaycan. - 2019. - 12 mart. - № 57. - S. 7.
Nəbiyeva Ü. İlin axır çərşənbəsi : Novruz gəlir, Yaz gəlir // Azərbaycan. - 2016. - 15 mart. - № 58. - S. 7.
Nəbiyeva Ü. Külək oyadan Yel çərşənbəsi // Azərbaycan. - 2016. - 8 mart. - № 53. - S. 12.

Nəbiyeva Ü. Novruzun ilk müjdəçisi - Su çərşənbəsi // Azərbaycan. - 2016. - 23 fevral. - № 41. - S. 8.
Nəbiyeva Ü. Yaradılışın mifik rəmzi Od çərşənbəsi : Novruz gəlir Yaz gəlir // Azərbaycan : qəzet. - 2016. - 1 mart. - № 47. - S. 8.
Nərimanoğlu M. Novruz bayramının öz oyunları var : meydan tamaşalarının yadigarı "Maral oyunu" və "Kilimarası"nı kəlbəcərlilər qoruyub saxlayırlar // Azərbaycan. - 2018. - 24 mart. - № 65. - S. 4.
Nərimanoğlu M. Xalq oyunları : // Azərbaycan. - 2016. - 19 mart. - № 62. - S. 10.
Nərimanoğlu M. Novruz oyunları : meydan tamaşalarının yadigarı "Maraloyunu" və "Kilimarası" xalq oyunları qorunub saxlanmaqdadır // Azərbaycan. - 2015. - 30 mart. - № 64. - S. 10.
Nəzakət. Od - yaşamaq və yaratmaq rəmzidir : bu gün Od çərşənbəsidir // Səs. - 2016. - 1 mart. - № 39. - S. 12.
Od çərşənbə // Respublika. - 2016. - 2 mart. - № 48. - S. 6.
Ömərov V. Azərbaycanda milli ənənələr və bayramlar içərisində Novruz bayramının yeri // Səs. - 2017. - 11 oktyabr. - № 184. - S. 15.
Orucov A. Xıdır Nəbi bayramı : Azərbaycanın bütün bölgələrində Novruz qabağı keçirilən mərasimlərdən biri Xıdır və yaxud Xıdır Nəbi bayramı // Azərbaycan. - 2015. - 11 fevral. - № 32. - S. 8.
Orucova S. Dörd ünsür - Novruz çərşənbələri // Xalq qəzeti. - 2018. - 13 mart. - № 56. - S. 8.
Orucova S. Külək oyadan çərşənbə // Azərbaycan. - 2019. - 12 mart. - № 57. - S. 7.
Orucova S. Novruz kosmoqonik və mifoloji xalq təfəkküründə // Xalq qəzeti. - 2018. - 20 mart. - № 62. - S. 7.

Rüstəmova-Tohidi S. Novruz bayramı tarix boyunca // Azərbaycan. - 2015. - 20 mart. - № 63. - S. 5.
Rza Z. Novruz milli birlik rəmzi, bolluq, bərəkət bayramıdır // İki sahil. - 2018. - 20 mart. - № 52. - S. 27.
Salmanlı R. Gəl, əziz bayramım, bir də görüşək! : Üzü Novruza sarı // Azərbaycan. - 2016. - 16 fevral. - № 35. - S. 8.
Səlim M. Unutmadığım Novruz // Ədəbiyyat qəzeti. - 2015. - 14 mart. - № 16/17. - S. 25.
Səlimov Ə. Durnalar gələndə qorqud bişəndə... // Azərbaycan. - 2018. - 18 mart. - № 61. - S. 7.
Soltanlı S. Yel çərşənbəsi - təbiətin yeni nəfəsi // Mədəniyyət. - 2015. - 11 mart. - № 19. - S. 13.
Su çərşənbəsi mərasimləri // Azərbaycan. - 2015. - 24 fevral. - № 43. - S. 7.
Sultanova M. Türk dünyasında Novruz bayramı necə qeyd olunur? // Mədəniyyət.az. - 2016. - № 3. - S. 14-17.
Taisoğlu T. Novruz axşamı : şeir // Azərbaycan. - 2018. - № 11. - S. 163-171.
Vəfa Z. Novruz xalqımızın milli dəyərlərə bağlılığını nümayiş etdirir // Azərbaycan : qəzet. - 2015. - 20 mart. - № 63. - S. 9.
Vəliməmmədov H. Əmin-amanlıq bayramı : Novruz gəlir, yaz gəlir // Azərbaycan : qəzet. - 2018. - 15 mart. - № 58. - S. 7.
Vəliyev Ə. Çillələr haqqında bilmədiklərimiz : xalqımızın qış mərasimləri milli mənəviyyatın zənginliyi və qədimlikdən xəbər verir // Kaspi. - 2016. - 25 fevral. - № 33. - S. 15.
Xəlilzadə F. Yurd sevgisinin qanadları // Kaspi. - 2016. - 15 mart. - № 45. - S. 13.
Zümrüd. Bu gün çərşənbələrin sultanı Torpaq çərşənbəsidir // Səs. - 2016. - 15 mart. - № 48. - S. 12.
Zümrüd. Yel Azərbaycanın mifik təfəkküründə yol göstərən və bələdçidir : yel çərşənbəsi // Səs. - 2016. - 8 mart. - № 44. - S. 12.

# Elimizə Novruz gəlir

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 13
Çapa imzalanmışdır: 01.03.2019
Tirajı:100
Pulsuz